# MUĞAM ALƏMİ
# VII BEYNƏLXALQ MUĞAM FESTİVALI
# 17-22 iyun 2025, Bakı

## Muğam Müsabiqəsi
## 18-20 iyun, 2025

## I. Ümumi Məlumat

### 1. Adı

"Muğam Aləmi" Beynəlxalq Muğam Festivalı çərçivəsində Muğam ifası üzrə Müsabiqə, Bakı, iyun 2025-cı il.

### 2. Təşkilatçılar

- Heydər Əliyev Fondu
- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi

### 3. Dəstək

- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
- Azərbaycan Milli Konservatoriyası

### 4. Müsabiqənin strukturu

- Müsabiqə ilkin seçim mərhələsi və iki açıq müsabiqə mərhələsindən ibarətdir.
- İlkin seçim mərhələsi sənədlər və ifaların səs yazıları əsasında keçirilir və müsabiqənin iştirakçılarını müəyyənləşdirir.
- Seçilmiş iştirakçılar Bakıda keçirilən müsabiqədə çıxış üçün dəvət olunurlar.

### 5. Müsabiqənin keçirilmə tarixi

18–20 iyun, 2025-ci il

### 6. Müsabiqənin keçirildiyi yer

Azərbaycan Milli Konservatoriyası
Ünvan: Azərbaycan Bakı, AZ1073, Yasamal rayonu, Ələsgər Ələkbərov 7

## 7. Münsiflər heyəti

Müxtəlif ölkələrdən dəvət olunmuş ənənəvi musiqinin görkəmli biliciləri - musiqiçilər, tədqiqatçılar və musiqinin təbliği ilə məşğul olan mütəxəssislər müsabiqəyə hakimlik etmək üçün münsiflər heyətinə cəlb ediləcəklər.

## 8. Repertuar

Birinci mərhələdə verilən 15 dəqiqə və ikinci mərhələdə verilən 25 dəqiqə vaxt ərzində hər bir müsabiqə iştirakçısı hər hansı bir ənənəvi musiqi mədəniyyətinin zənginliyi və daxili rəngarəngliyini əks etdirən proqram təqdim etməli və təmsil etdiyi musiqi ənənəsinin xüsusiyyətlərini əcnəbi dinləyicilərə ən cəzbedici və aydın şəkildə çatdırılmasına səy göstərməlidir. Hər bir qrup öz fitri istedadından istifadə edərək öz musiqi mədəniyyətini xarici dinləyici üçün ən səlis və cəlbedici şəkildə çatdırmağa səy göstərməlidir. Əlavə vasitələrdən – mühazirədən, şərhçinin iştirakından, çap və audiovizual media vasitələrindən, səhnə quruluşu elementlərindən və s. istifadəyə icazə verilir.

# II. Müsabiqədə iştirak üçün müraciət

## 1. İştirak hüququ

Müsabiqədə yaşı 35-i ötməyən (18 iyun 1990-cı il və daha gec təvəllüdlü) həm vokal, həm də instrumental ifaçılar iştirak edə bilərlər. Onları müşayiət edənlərə (tərkibi 5 nəfərdən çox olmamaq şərtilə) yaş məhdudiyyəti qoyulmur.

## 2. Müraciət forması

İştirakçılar https://spaceofmugam.culture.az/ saytında öz video görüntüləri, şəkil, qısa yaradıcılıq xülasəsi və digər məlumatlardan ibarət qeydiyyat formasını tamamlamaqla qeydiyyatdan keçə bilərlər.

*Qeydiyyat prosesi üçün son tarix 01 iyun 2025-ci il.*

## 3. Qeydiyyatdan keçmə qaydası

Müsabiqəyə qeydiyyat yalnız onlayn şəkildə aparılır. Onlayn ərizədə qeydiyyat forması, fərdi şəkil, passportda şəxs haqqında məlumatın göstərildiyi səhifə, yaradıcılıq xülasəsi və video yazı (10 dəqiqədən çox olmamaq şərti ilə) göstərilməlidir.

Ərizənin doldurulduğu tarixdən 6 ay əvvəldən tez olmayaraq öndən, sinədən yuxarı çəkilmiş və yüksək keyfiyyətli rəqəmsal formatda şəkillər olmalıdır (minimum 300 dpi). Şəkillərdən rəsmi proqramlarda, müsabiqənin rəsmi web-saytında və ictimai əlaqələr məqsədilə istifadə olunacaqdır.

Qeydiyyat forması tam doldurulmadığı halda, həmin ərizənin qəbulu prosesi dayandırıla bilər.

## 4. Qeydiyyat ünvanı

Əlaqə üçün ətraflı məlumat müsabiqənin veb saytındakı Əlaqə bölümündə göstərilmişdir.

## 5. İlkin seçim mərhələsi

- İlkin seçim mərhələsi ərizəçilər tərəfindən təqdim olunmuş sənədlərə əsasən həyata keçiriləcək.
- İlkin seçim mərhələsinin nəticələri ərizəçiyə 29 may 2025-ci il tarixinədək göndəriləcək.

# III. Müsabiqədə iştirak

## 1. İştirakçıların səfər və yerləşmə xərcləri

Bütün yol və yerləşmə xərcləri iştirakçı tərəfindən qarşılanır.

## 2. Çıxışların qaydası

Əsas turlarda çıxışların ardıcıllıqı barədə qərar 18 iyun 2025-ci il səhər saat 10:00-da keçiriləcək püşkatma zamanı qəbul ediləcəkdir.

## 3. Müsabiqə çıxışları

- Müsabiqə dinləyicilər üçün açıq şəraitdə keçirilir.
- Müsabiqənin əsas mərhələsindən başlayaraq mükafatçıların Qala Konsertinə qədər bütün ifalar televiziya və radioda, yaxud internet vasitəsilə yayımlana bilər. Həmçinin ifaların video və audio yazıları da televiziya və radioda, yaxud internet vasitəsilə yayımlana bilər. İfaların yazılarının CD, DVD və ya digər daşıyıcıların vasitəsilə satışı da planlaşdırılır.

## 4. Münsiflik prosesi

- 5 nəfərdən ibarət münsiflər heyəti reytinq qiymətləndirmə sisteminə əsasən iştirakçıların çıxışlarına öz rəyini bildirəcək. Münsiflərin ayrı-ayrılıqda qərarlaşdırdıqları fərdi qiymətləndirmə siyahıları ümumi cədvələ köçürüləcək və orta qiymətləndirmə hesabatı ictimaiyyətə açıqlanmazdan əvvəl münsiflər tərəfindən müzakirə olunacaq.
- Müsabiqə zamanı münsiflərlə iştirakçılar arasında heç bir ünsiyyətə icazə verilmir. Bu qayda müsabiqəni tərk etmiş iştirakçıya aid edilmir.
- Münsiflər heyətinin verdiyi qərara qarşı heç bir etiraz və ya şikayət qəbul edilmir.

## 5. Mükafatlar

| | |
|---|---|
| Qran-pri | 20,000 avro məbləğində pul |
| mükafatı Birinci yer | 15,000 avro məbləğində pul |
| mükafatı İkinci yer | 10,000 avro məbləğində pul |
| mükafatı Üçüncü yer | 5,000 avro məbləğində pul |
| mükafatı | |

- Münsiflər heyəti yerlərdən hansınısa heç bir iştirakçıya verməmək və ya eyni yeri bir neçə iştirakçıya vermək hüququna malikdir
- Əgər bir neçə qalib eyni yeri tutarsa, onda həmin yer üçün müəyyən edilmiş mükafat həmin qaliblər arasında bərabər şəkildə bölüşdürülməlidir
- Tamaşaçı mükafatı kimi digər xüsusi mükafatlar da təqdim oluna bilər
- Müsabiqəyə dəstək məqsədilə təşkilatlar və fərdi şəxslər tərəfindən nəzərdə tutulan əlavə mükafatlar qaliblərə təqdim oluna bilər
- Pul mükafatları qaliblərin bank hesablarına köçürüləcəkdir.

## 6. Müsabiqə qaliblərin qala konserti

- Təşkilatçılar tərəfindən müsabiqə qaliblərinin Bakıda qala konserti keçiriləcəkdir. Qran-pri, birinci, ikinci və üçüncü yerlərin qalibləri bu konsertdə çıxış etməyə razı olmalıdırlar.
- Qala konsertdə qaliblər müsabiqənin əsas mərhələsində təqdim etdikləri musiqi parçalarını ifa edəcəklər. İfa olunacaq musiqi parçaları festivalın Bədii Şurası tərəfindən müəyyənləşdiriləcək.

# IV. Digər Məsələlər

## 1. Viza prosesi

Təşkilatçılar müsabiqə iştirakçılarının viza xərclərini ödəmədən Azərbaycana gəlməsi üçün öz səylərini göstərəcəklər. Hər halda ərizəçilər müsabiqədə iştirak etmək məqsədilə ölkəyə daxil olmaq üçün özləri müvafiq viza alınması prosesinə tam hazır olmalıdırlar. Viza alınması üçün dəvət məktubu və ya hər hansı digər sənədlər tələb olunarsa, ərizəçi Təşkilatçılara öncədən müraciət etməlidir.

## 2. Sığorta

Sığortanın alınıb və ya alınmaması prosesi üzrə tam məsuliyyət iştirakçıların öz ixtiyarındadır. Sığortaya sağlamlıq və zədə alma, o cümlədən səfər zamanı qəza, yanğın, və ya oğurluq hadisəsi nəticəsində əşyaların və ya musiqi alətinin itməsi və ya zədələnməsi aiddir.

## 3. Məhdudiyyətlər

İştirakçılar məhz müsabiqə üçün tələb olunan çıxışlardan başqa, müsabiqənin keçirildiyi müddət ərzində müsabiqədən kənar digər açıq auditoriya qarşısında çıxış edə bilməzlər.